# Mənim igid əsgərlərim

*(Səngərə məktub)*



***Döyüşçülərimiz qələbə sevincini bizimlə bölüşürlər***

***Müəllif***

Salam, əsgər!
Salam igid!
Mübarəkdi qələbəniz!
Bizim qədim torpaq üstə,
sizin təzə
qədəminiz!
Ordan mənə bu zənginiz!
Qarabağa işıq saçan
fişənginiz!
Qaya üstə çay süfrəniz!
Siz hərəniz bir əsrarəngiz,
açılan bir səhərsiniz.
Xeyir çıxıb qabağıma,
döyüşlərin səsi gəlir
qulağıma.
Mənim igid qazilərim,
əsgərlərim
Heydərim[1]
və heydərlərim!

Raketlərə yazıbsınız
siz adımı,
düşmən görsün,
unutmasın soyadımı.
Söz - indi bir sərkərdədir,
döyüşçünün yanındadır,
səngərdədir.
Yoxdur sizin əvəziniz,
Qarabağı qızdıracaq -
nəfəsiniz.
Salam deyin:
Qarabağın
kəhrizinə!
Ot göyərən o yoluna,
o izinə,
unudulan bulaqlara,
o sürüsüz yaylaqlara,
Qarabağın bizə məlhəm
havasına,
Şahinlərin, qartalların
yuvasına.
Şahin kimi, qartal kimi
uçun siz də,

Qıyya çəkin, nəfəs alaq
burda biz də.
Dünən Ali Baş Komandan,
"Qarabağ" və nida!,- dedi[2] ,
düşmənə əlvida dedi.
Xəbər verin son raketi
atan kimi,
Xankəndinə, ya Şuşaya
çatan kimi.
Mən də burda bir əsgərəm,
Esxil[3] dünən,
mən də bu gün
səfərbərəm.

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

*30.09.2020*

*1 Səngərdən zəng vurub, sevincini şairlə bölüşən əsgər - Heydər Quliyev.*
*2 Cənab Prezidentin Rusiyada, Valday konfransındakı tarixi çıxışına işarədir.*
*3 Qədim yunan dramaturqu.*

Azərbaycan.- 2020.- 2 oktyabr.- S.8.